

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS



www.pq.mia.gov.az

polisazerbaycan

16 noyabr 2023-cü il
cümə axşamı

1933-cü ildən çıxır
№ 44 (3658)

# Ədalətin zəfəri

## Xankəndi şəhərində keçirilən hərbi parad xalqa hesabat, dünyaya ciddi mesaj oldu





**Noyabrın 8-də, Zəfər Gününün üçüncü ilində Xankəndi şəhərində əsl bayram təntənəsilə keçirilən hərbi parad Böyük Qələbənin möhürü, zəfərin nidası oldu. Bu paradı seyr edən hər bir azərbaycanlı müstəqillikdən sonra ilk dəfə özünü bütöv, vahid Azərbaycanın vətəndaşı kimi hiss edə bildi.**

O gün xalqımız qürur dolu bir gün yaşadı. Xankəndidə belə bir ehtişam 104 il əvvəl - 1919-cu ilin iyul ayında olub. Bir əsr keçəndən sonra Azərbaycanın Ali Baş Komandanı paradı qəbul edirdi. Zəfərimizə nida qoyan hərbi paradda Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və oğulları Heydər Əliyev iştirak edirdilər.

### Qəti qələbə nitqi!

Ali Baş Komandanın hərbi paraddakı çıxışı növbəti natiqlik nümunəsi, qəti qələbə nitqi idi.

Çıxışının əvvəlində 20 il bundan əvvəl Prezident kimi xalqa verdiyi sözü xatırladan dövlət başçısı "Həm seçkilər ərəfəsində, həm andiçmə mərasimində doğma xalqıma söz vermişdim ki, gün gələcək biz Azərbaycanın Dövlət Bayrağını işğal altında olan torpaqların hər bir guşəsində qaldıracağıq", - deməsi həm xalqa verilən sözün yerinə yetirilməsinin hesabatı, həm də düşmənçilik niyyətində olanlara ciddi mesaj kimi səsləndi.

Ölkə rəhbəri atəşkəs dövründə münaqişənin nizamlanması ilə məşğul olmuş vasitəçilərin faktiki olaraq vəziyyəti dondurmağa çalışdıqlarını, bununla da sülh danışıqlarına bəslənən ümidlərin getdikcə tükəndiyini, müharibənin qaçılmaz olduğunu bildirdi: "Mən dəfələrlə bunu müxtəlif kürsülərdən bəyan etmişdim ki, biz bu vəziyyətlə barışmayacağıq. Azərbaycan torpağında ikinci erməni dövlətinin yaradılmasına icazə verməyəcəyik, danışıqlar nəticəsiz başa çatsa, güc tətbiq edərək beynəlxalq hüquq əsasında öz doğma torpaqlarımızı döyüş meydanında işğalçılardan azad edəcəyik".

Prezident Şuşa əməliyyatından sonra, Silahlı Qüvvələrimiz Xankəndinin bir addımlığında olanda müharibənin dayandırılmasına da toxundu: "Müharibənin o vaxt dayandırılması bizim şüurlu seçimimiz idi və bu gün bizim, bax, burada - Xankəndi şəhərinin mərkəzi meydanında hərbi paradı keçirməyimiz bir daha onu göstərir ki, nə qədər düzgün, müdrik addım idi".

Dövlət başçısı məhz o zaman Ağdam, Kəlbəcər və Laçın rayonlarının bir güllə atılmadan işğaldan azad olunduğunu yada saldı. Son üç il ərzində keçirilmiş hərbi əməliyyatlar, o cümlədən Fərrux, Sarıbaba-Qırxqız və digər hərbi əməliyyatlar isə Qarabağda hərbi strateji mövqelərimizi xeyli yaxşılaşdırdı. Nəhayət, sentyabrda keçirilmiş antiterror tədbirlərilə 30 il bundan əvvəl torpaqlarımızda yaradılmış qondarma rejimə tamamilə xitam verildi.

Bu Böyük Qələbənin Azərbaycan hərbçilərinin qanı-canı bahasına əldə edildiyini xüsusilə vurğulayan Prezident müharibədə nə qədər müasir hərbi texnologiyalardan istifadə edilsə də qələbəninin əsgər və zabitlərin qəhrəmanlığı sayəsində qazanıldığını dedi: "Biz istədiyimizə nail olduq, beynəlxalq hüququ bərpa etdik, tarixi ədaləti bərpa etdik, milli ləyaqətimizi bərpa etdik, düşmənə onun yerini göstərdik".

Prezidentin çıxışından sonra Silahlı Qüvvələrin parad heyətlərinin təntənəli keçidi oldu.



## Rəsmi xəbərlər

- Prezident İlham Əliyev noyabrın 11-də Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 1 iyun tarixli 1043 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elektron məhkəmə" informasiya sistemi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

- Prezident İlham Əliyev noyabrın 11-də "Bakı şəhəri Binəqədi rayonunun, Sumqayıt şəhərinin və Abşeron rayonunun sərhədlərinin müəyyənləşdirilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 17 oktyabr tarixli 1005-VIQ nömrəli Qanununun tətbiqi barədə Sərəncam imzalayıb.

# Konstitusiya Gününün qüruru

## Lokal xarakterli antiterror tədbirləri ilə dövlətimizin və xalqımızın konstitusion hüquqları tam bərpa edildi

**Noyabrın 12-də müstəqil Azərbaycan Respublikasının Konstitusiyasının qəbulunun 28-ci ili tamam oldu. 1995-ci ilin həmin tarixində keçirilən ümumxalq referendumunda xalqımız özünün zəngin tarixi və dövlətçilik ənənələrinə sadiq qalaraq müstəqil dövlətimizin konstitusiyasının qəbul edilməsinə səs verdi. Əsas qanunun qəbulu ulu öndər Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısındakı böyük xidmətlərindəndir.**

1991-ci il oktyabrın 18-də qəbul edilən "Azərbaycan Respublikasının Müstəqilliyi haqqında Konstitusiya Aktı"nda ölkəmizin yeni Konstitusiyasının hazırlanması ilə bağlı bənd var. Bu sənədin 32-ci maddəsində göstərilir ki, Konstitusiya Aktı Azərbaycanın yeni konstitusiyasının hazırlanması üçün əsasdır. Lakin 1993-cü ilə qədər Azərbaycanda hakimiyyətdə olan iqtidarlar bu barədə heç düşünmədilər də.

Müstəqil respublikamızın yeni konstitusiyanın qəbulu yalnız ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdandan sonra həyata keçdi. 1995-ci il noyabrın 12-də keçirilən referendumda konstitusiyanın qəbul edilməsi Azərbaycanın müasir tarixinin mühüm siyasi hadisəsinə çevrildi. Tariximizə Heydər Əliyev Konstitusiyası kimi də daxil olan Əsas Qanunun qəbul edilməsi respublikamızın həyatında yeni dəyişikliklərə yol açdı.

Konstitusiyamızın 11-ci maddəsinin birinci bəndində qeyd olunur ki, Azərbaycan Respublikasının ərazisi vahiddir, toxunulmazdır və bölünməzdir. Vətən müharibəsindəki qələbə ilə Ana Qanunumuzun bu müddəası təmin edildi. Ərazi bütövlüyümüzün təminatçısı kimi Prezident İlham Əliyev bu konstitusion normanı qətiyyətlə reallaşdırdı. Azərbaycan dövlətinin və xalqımızın pozulmuş konstitusion hüquqlarını tam bərpa etdi.

Şəhər və kəndlərimizin işğaldan azad edilməsindən sonra qarşılaşdığımız acınacaqlı mənzərələr xalqımızın hüquqlarının pozulmasının ayrı-ayrı nümunələridir. Bu gün Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa və quruculuq işlərinin nəticəsində Azərbaycan dövləti öz vətəndaşlarının Ermənistan tərəfindən pozulmuş konstitusion hüquqlarını qətiyyətlə bərpa edir. Bu günü xalqımız daha böyük coşqu və qürur hissi ilə qeyd edir. Çünki tarixi zəfərimiz dövlətimizin konstitusion əsaslarını da tam təmin edib. Konstitusiyamız artıq bütün Azərbaycan ərazisində qüvvədədir.

Nazir vətəndaşlarla görüşüb 2

Tarixin şanlı səhifəsi 2

Mühafizə polisi, etibarlı keşikçi 3

Virtuallıqda reallaşan cinayət... 4

## RESPUBLİKA XƏBƏRLƏRİ

### Büdcə məsələləri müzakirə olunub

Milli Məclisin payız sessiyasının plenar iclasında 2024-cü ilin dövlət büdcəsi zərfinə daxil olan qanun layihələri müzakirə olunub. Sahibə Qafarovanın sədrliyi ilə keçirilən toplantının gündəliyinə ümumilikdə 14 məsələ daxil edilib. Dövlətimizin haqqlı mövqeyinin və maraqlarının müdafiəsi, ərazi bütövlüyümüzün və sərhədlərimizin toxunulmazlığının təmin edilməsi baxımından ölkənin müdafiə qabiliyyətinin, milli təhlükəsizliyinin daha da möhkəmləndirilməsi xərclərinin yüksək səviyyədə saxlanılması növbəti il üçün də əsas prioritetlər arasında yer alır.

### Azərbaycana qarşı ittihamlar əsassızdır

Noyabrın 13-də Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Cozep Borel tərəfindən Brüsseldə Xarici Əlaqələr Şurasının iclasından sonra keçirilən mətbuat konfransında Azərbaycan əleyhinə səsləndirilmiş, regiondakı reallıqları qəsdən təhrif edən ittihamlar tamamilə qeyri-adekvat və qəbuledilməzdir. Bu barədə Xarici İşlər Nazirliyinin Cozep Borelin Azərbaycan əleyhinə əsassız ittihamları ilə bağlı şərhində bildirilib. Qeyd edilib ki, 44 günlük Vətən müharibəsi, istərsə də cari ilin sentyabrında 24 saatlıq antiterror tədbirləri ölkəmizin suveren ərazilərində həyata keçirilib. Azərbaycan beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində legitim üsullarla öz suverenliyini bərpa edib.

### Yaşayış minimumu açıqlanıb

2024-cü il üçün yaşayış minimumu haqqında qanun layihəsi Milli Məclisdə birinci oxunuşda təsdiqlənib. Sənəd Milli Məclisin 2024-cü il büdcə zərfinə daxil olan qanun layihələrinin müzakirəsi ilə bağlı noyabrın 14-də keçirilən plenar iclasının gündəliyinə daxil edilib. Əhalinin əsas sosial-demoqrafik qrupları üzrə yaşayış minimumunun məbləği 2024-cü il üçün yaşayış minimumu ölkə üzrə 270 manat, əmək qabiliyyətli əhali üçün 287 manat, pensiyaçılar üçün 222 manat, uşaqlar üçün 235 manat məbləğində müəyyən edilir. Bu Qanun 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

### Qeyri-neft məhsullarının ixracı artıb

Dünya bazarında neftin və qazın qiymətlərinin ötən illə müqayisədə aşağı düşməsinə baxmayaraq, xarici ticarət balansında böyükhəcmli profisit müşahidə olunmaqdadır. Cari ilin 10 ayında 29 milyard ABŞ dollarını ötmüş ixrac ticarət balansının profisiti 15 milyard dollar təşkil edib. Bununla bağlı iqtisadiyyat naziri Mikayıl Cabbarov Milli Məclisin plenar iclasında bildirib ki, qeyri-neft-qaz sektorunda məhsul ixracı isə 11 faizdən çox artaraq 2,7 milyard ABŞ dollarını ötüb. Emal olunmuş kənd təsərrüfatı məhsulları çıxılmaqla, qeyri-neft sənaye məhsullarının qeyri-neft qaz ixracında payı 68 faizə çatmaqdadır.

### Qarabağda nə qədər vəsait xərclənib?

Azad olunmuş ərazilərin bərpasına xərclənən vəsaitin həcmi açıqlanıb. Milli Məclisdə "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" qanun layihəsinin müzakirəsi zamanı maliyyə naziri Samir Şərifov bildirib ki, indiyə kimi azad olunmuş ərazilərin bərpasına ümumilikdə 11 milyard manat vəsait xərclənib, cari ilin sonuna bu vəsaitin 12 milyard manata çatması gözlənilir. Qarabağın və Şərqi Zəngəzurun ölkə iqtisadiyyatına reinteqrasiyası gələn illərdə də əsas prioritet olaraq qalacaq.

### Müharibə iştirakçılarına dövlət qayğısı

Postmüharibə dövründə şəhid ailələri üzvləri və müharibə iştirakçıları olan 126 min şəxsə 315 min xidmət göstərilib. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən icra olunan bu paket çərçivəsində şəhid ailələri, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin mənzillə təminatı proqramı 5 dəfə genişlənib, onlara 5350 mənzil və fərdi ev, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə 324 avtomobil təqdim edilib. Ümumilikdə ötən dövrdə bu kateqoriyalardan olanlara 14 min 150 mənzil və fərdi ev, müharibə ilə əlaqədar əlilliyi olanlara 7,5 mindən çox avtomobil verilib.

### Minalar quruculuq işlərinə mane olur

Minatəmizləmə Agentliyində ATƏT Parlament Assambleyasının prezidenti Pia Kaumanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüş keçirilib. Görüşdə minaların insanların həyatına törətdiyi təhdidlər, keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qayıtması və işğaldan azad olunmuş ərazilərdə bərpa-quruculuq işlərinin gedişatına yaratdığı maneələr barədə nümayəndə heyətinə məlumat verilib.

# Nazir vətəndaşlarla görüşüb

## Vətəndaşların müraciətini dinləyən general-polkovnik Vilayət Eyvazov onların problemlərinin həlli üçün tapşırıqlar verib





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov noyabrın 14-də və 15-də Gəncə Şəhər Baş Polis İdarəsində növbəti vətəndaş qəbulu keçirib.**



Nazir əvvəlcə Gəncə şəhərindəki ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini böyük hörmət və ehtiramla yad edib.

Gəncə, Kəlbəcər, Xocalı, Goranboy, Samux, Göygöl, Naftalan və digər rayonlardan qəbula gələn 120 vətəndaşın müraciətini dinləyən nazir onların problemlərinin həlli üçün Nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib. Qaldırılan məsələlərin əksəriyyətinin yerində həlli ilə bağlı tədbirlər görülüb.

Səfər çərçivəsində general-polkovnik V.Eyvazov DİN Daxili Qoşunlarının Gəncədə yerləşən hərbi hissəsinə gedib, hərbi qulluqçuların xidmət və sosial-məişət şəraiti ilə maraqlanıb.

Nazir orada ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş hərbi qulluqçuların xatirəsinə ucaldılmış abidəni ziyarət edib.

Hərbi hissənin qərargahında komandir heyəti ilə keçirilən əməliyyat müşavirəsində nazir hərbi qulluqçulara konkret tapşırıq və tövsiyələrini verərək qanunvericiliklə müəyyən edilmiş vəzifə və tapşırıqların öhdəsindən bundan sonra da layiqincə gələcəklərinə əminliyini ifadə edib.

Bundan sonra general-polkovnik Vilayət Eyvazov polis orqanlarında xidmət etmək arzusunda olan gənclərin sıra baxışını keçirib.

45-i Vətən müharibəsi iştirakçısının da qatıldığı sıra baxışında xidmətə qəbulun şərtlərinə uyğun gələn 225 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

Sonda daxili işlər naziri, general-polkovnik V.Eyvazov qeyd olunan rayonların polis rəislərinə ictimai asayişin qorunmasında, cinayətkarlığa qarşı mübarizədə daha səmərəli tədbirlərin tətbiqi, vətəndaşların müraciətlərinə operativ və obyektiv baxılmasına dair tapşırıqlarını verib.



# Tarixin şanlı səhifəsi

## Xalqa və dövlətə sevginin, sədaqətin ünvanı - XANKƏNDİ

**Xankəndinin qapıları azərbaycanlıların üzünə o zaman bağlandı ki, ulu öndər Heydər Əliyev siyasi hakimiyyətdən uzaqlaşdırıldı. Kreml bunu etməklə əslində Qafqazı dirigözlü oda atmış oldu.**

Onun siyasi nüfuzu, sambalı və əsl Azərbaycan kişisinə xas olan sözübütövlüyü imkan verməzdi ki, regionda yaşayan xalqların birgəyaşayışına maneə olan və sonradan münaqişələrə çevrilən hallar baş versin. Ancaq Qafqaz bəzi maraqlı güclərə həmişə "odlu-alovlu" lazım idi. Və bu uzun illər belə də davam etdi. Ta ki...

### Qarabağ Azərbaycandır nidası

Valdayda Prezident İlham Əliyevin Paşinyana Qarabağ Azərbaycandır və nida deməsi bir durğu işarəsindən daha çox bir xalqın hamıya, hər kəsə, elə Qarabağın açarı bizdədir deyənlərə haqlı çağırışının ifadəsi idi əslində. Özü də sərt bir şəkildə. Beynəlxalq hüququn haqlının yanında olmaması Qarabağ münaqişəsinin uzun illər həllini tapmamasının bariz nümunəsi idi və yeni torpaqlar uğrunda yeni müharibə ritorikası ilə təkcə Azərbaycanı deyil, ümumilikdə regionu hədələyən Ermənistanı, terroru müdafiə edən dövləti susdurmağın bircə yolu vardı-Müharibə.

### Müharibə başladı

Üç il bundan öncə Prezidentin xalqa müraciətində artıq "lazım gələrsə" ifadəsi yer almırdı. Vaxtı gəlib, düşmən həddi aşdı və onu susdurub torpaqlarımızı azad etməliyik çağırışına o anı çoxdan gözləyən xalq əmrindəyik Ali Baş Komandan nidası ilə cavab verdi. "Dəmir yumruq" düyünlənib düşməni yerdə, göydə, bir sözlə, hər yerdə məhv etdi. Hər zaman ucalarda görmək istədiyimiz bayrağımız əsl ucalığına Şuşa düşməndən azad olunanda qalxdı. Şuşasız özümüz kimi bayrağımız da boynu bükük idi.

### Döyüşən Lider

Vətən savaşında Xankəndinin iki addımlığında qərar tutan ordumuz düşmənin canına qorxu salsa da xan babamızın yurduna bayraktarlar ziyan vurmadı. Vaxtı və zamanı gələndə nəyi necə edəcəyini yalnız O bilirdi - ata vəsiyyətini yerinə yetirən Lider. Düşmənin siyasi oyunları bu dəfə də bitib-tükənmədi. Avropada, okeanın o tayında terrorçulara dəstək verənlər dəridən-qabıqdan çıxdılar. Və nəticə...

### Zəfərimizə, bütövlüyümüzə, qayıdışımıza şahid olan Xankəndi

"Əziz həmvətənlər. Bu gün tarixi bir gündür. Bu gün Xankəndi şəhərinin mərkəzi meydanında Azərbaycan Bayrağı qaldırıldı. Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm". Üçrəngli bayrağın Xankəndinin mərkəzində qaldırılması əslində həqiqətin üzərindən qara pərdələrin qalxması, haqqın nahaqq, xeyirin şər üzərində qələbəsi demək idi. Bu tarixi dönüş dünyanın hərb tarixinə də öz möhürünü vurdu. Və Prezident bu dönüşü özünəməxsus şəkildə belə ifadə etdi: "...Bu gün burada olmağımızın əsas səbəbkarı Azərbaycan xalqıdır, Azərbaycan övladıdır. Elə bir gənc nəsil yetişdirdik ki, Vətən, torpaq uğrunda ölümə getməyə hazır idi və ölümə də gedirdi. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Biz onların ruhu qarşısında baş əyirik. Biz Azərbaycan xalqı olaraq onlara əbədi borcluyuq"...

Zəfərin mübarək, Azərbaycan, Zəfərin mübarək Vətən! Haqqımız olanı haqq uğrunda vuruşaraq alanları isə hörmətlə anır, ehtiramla yad edirik.

*Hafiz Təmirov*
*polis polkovnik-leytenantı*

# Xidmətdəyik, xidmətinizdəyik...

## Qürur doğuran ictimai rəy uğura yol açır

**İctimai rəy fəaliyyətə verilən qiymətin müsbət və ya mənfi formasıdır. Nəzarət mexanizminin işlək olması bütün sahələrdə dönüş yaratdığı kimi, polisin də fəaliyyətinə təsirsiz ötüşmür.**



Odur ki, vətəndaş məmnunluğu qazanılan uğurların təməlinə çevrilir və polisə inam, etibar, güvənc ünvanı kimi üz tutulur. Daxili İşlər Nazirliyinə ünvanlanan təşəkkür məktubları da vətəndaşın polislə bərabər, elə dövlətdən də razılığı özündə ehtiva edir.

**Pirallahı rayon sakini İstək Məmmədova** ictimai sabitliyin təmin olunmasına, təhlükəsizliyə, cinayətkarlığa qarşı qətiyyətli mübarizə tədbirlərinə görə Azərbaycan Polisinin xidməti fəaliyyətini təqdir edir.

"Baş vermiş yol-nəqliyyat hadisəsi zamanı avtomobilimə xeyli ziyan dəymişdi. Qarşı tərəf öz xətasını qəbul etmək istəmirdi. Nərimanov Rayon Polis İdarəsinin əməkdaşlarının operativ və obyektiv araşdırmasından sonra problemim müsbət həllini tapdı". **Bu fikirlər instaqram istifadəçisi Aygün Rəsulova tərəfindən yazılıb.**

**Polis veteranı Vidadi Həsənov səhhətində** yaranan problemlə bağlı DİN-in A.Heydərov adına Respublika Hospitalında müalicə olunması üçün ona göstərilən köməkliyə görə təşəkkürünü bildirir.

**Vətəndaş Diana Mazepova** isə övladının təhsil aldığı tam orta məktəbdə keçirilən maarifləndirmə tədbirlərini yüksək qiymətləndirir, diqqət və qaygıya görə Pirallahı Rayon Polis İdarəsinin əməkdaşlarına təşəkkürünü bildirir.

**Vətəndaş Anar Hacıyev** dələduzluğa məruz qalması ilə bağlı müraciətinə tez bir zamanda baxılaraq onu narahat edən məsələnin həllini tapmasında göstərdikləri köməkliyə görə Azərbaycan Polisinə təşəkkürünü bildirir, şərəfli xidmətdə uğurlar diləyir.

**Aslan Həmidli** vətəndaşların hüquqlarının qorunmasında gərgin və fədakar xidmət sərgilədiklərinə görə daxili işlər orqanları əməkdaşlarına minnətdarlığını ifadə edir.

**"Newsport.az" saytının baş redaktoru Mərdan Həsənov** müraciətinə tez bir zamanda baxılmasına və üzləşdiyi problemin həllini tapmasında göstərdikləri köməkliyə görə Baş Dövlət Yol Polisi İdarəsinin əməkdaşlarına təşəkkürünü bildirir.

*Aytəkin Nəcəfova*
*polis polkovnik-leytenantı*

# Vətənə dönənlər

## Şəhid hərbi qulluqçunun xatirəsi anılıb



Astara Rayon Polis Şöbəsinin əməkdaşları torpaqlarımızın azad edilməsi uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalan Daxili Qoşunların hərbi qulluqçusu, baş çavuş Orxan Babayevin anım günündə onun məzarını ziyarət ediblər.

Şəhidin məzarı önünə əklil qoyan polis əməkdaşları XXI əsrin möcüzəsi kimi hərb tarixinə düşən Vətən müharibəsində hərbi qulluqçularımızın şücaətindən söz açıb, onların əziz xatirələrinin heç vaxt unudulmayacağını qeyd ediblər.

Şəhid hərbi qulluqçunun ailəsinə səbr diləyən həmkarlarımız onların qayğıları ilə də maraqlanıblar. Qəhrəmanımızın ailə üzvləri göstərilən diqqət və qayğıya görə ölkə və DİN rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

Qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə baş çavuş Orxan Sədail oğlu Babayev ölümündən sonra "Vətən uğrunda" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

*Məhəmməd Rzayev*
*polis kapitanı*

# Mühafizə polisi, etibarlı keşikçi

## Təhdidlərdən qorunmaq üçün peşəkarlara etibar edilir

**Əmlakını qorumaq üçün təhlükəsizlik tədbirləri görmək ilk növbədə əmlak sahibinin işidir. İnzibati ərazidə kriminal vəziyyət sabit olsa belə, cinayət hadisəsilə üzləşmək ehtimalını gözardı etmək doğru olmaz. Adətən, mənzillərə, obyektlərə kamera nəzarət sistemlərinin quraşdırılması oğurluq cinayətlərinə qarşı effektli qoruma kimi qəbul olunur.**




### Polisin mühafizəsi varsa, risk yoxdur

Təhlükəsizlik kameraları cinayətkarın yaxalanmasına və məsuliyyətə cəlb olunmasına, şübhəsiz ki, kömək edir. Məsələn, belə nəzarət kameraları dəlil-sübut "toplayır", bu da cinayətin üstünün açılmasında işə yarayır. Ancaq, bu "üstünlük" cinayətlərin, arzuolunmaz hadisələrin önlənilməsində heç də həmişə istənilən nəticəni vermir.

Buna görə mənzil və obyektlərdə gizli talama cinayətlərindən, bədbəxt hadisələrdən maksimum sığortalanmaq üçün DİN Baş Mühafizə İdarəsinin xidmətindən istifadə etmək ən doğru seçim sayılmalıdır. Təsadüfi deyil ki, ölkəmizdə polisin mühafizə etdiyi yaşayış yerində və ya obyektdə indiyədək qərət hadisəsi baş tutmayıb, əmlakı qorunan şəxs zərər çəkməyib. Oğurluğa cəhd edənin ən böyük "uğuru", uzaqbaşı, cinayət başından da yaxalanmaq olub, bundan daha artığına "macal" tapmayıb.

Sistemin ən böyük üstünlüyü ondan ibarətdir ki, polis yaşayış yerini siqnalizasiya ilə qoruduğuna görə əmlaka kənar müdaxilədən dərhal xəbər tutur. Yüksək həssaslığa malik texniki vasitələr evdə baş verən ən cüzi dəyişiklikləri belə qeydə alır və həyəcan siqnalının işə düşməsindən bir neçə dəqiqə sonra polis özünü hadisə yerinə çatdırır. Bura yalnız gizli talama niyyəti ilə qorunan əraziyə daxil olmaq cəhdi deyil, hər hansı texnogen qəza, yanğın hadisəsi kimi dekriminal təsirlərin önlənilməsi də aiddir. Misal üçün, ötən il Binəqədi ərazisində qorunan obyektlərdən birinə qonşu mənzilin su borularındakı nasazlıqdan subasma olmuşdu, siqnalizasiya dərhal işə düşmüşdü. Obyekt sahibi DİN rəhbərliyinə yazılı təşəkkür edirdi ki, polis əməkdaşlarının operativliyi sayəsində sahibkarlıq fəaliyyətinə aid vacib sənədlər məhv olmaqdan xilas edilib.

### Səbaildə operativlik örnəyi

Bu günlərdə Səbail rayonunda baş vermiş daha bir hadisə mühafizə sistemi ilə qorunmanın əmlak sahibi üçün nə qədər həyati əhəmiyyət daşıdığını gözlər önünə sərdi. Deməli, noyabrın 5-də səhər saat 07:00 radələrində rayonun Nizami küçəsində yerləşən mağazaların birindən Səbail Rayon Mühafizə İdarəsinə həyəcan siqnalı daxil olub. Dərhal dislokasiya üzrə tutucu qrupun polis nəfərləri, polis baş serjantı Mübariz İsmayılov və polis serjantı Elnur Məmmədov özlərini həmin ünvana çatdırıblar. Operativliyin müddətini dəqiq göstərmək üçün xüsusilə vurğulamalıyıq: siqnal qəbul edildikdən 2 dəqiqə sonra.

Polis əməkdaşları obyektə baxış keçirərkən mağazanın içində yanğın olduğunu aşkar ediblər. Vaxt itirmədən yanğınsöndürən çağırıb, obyekt sahibinə məlumat verən əməkdaşların köməyinə ərazidə xidmətdə olan polis baş serjantı Akif Bayramovla polis serjantı Şamil Əzizov da göndərilib. Həmkarlarımız yanğınsöndürmə briqadası gələnə qədər yanğının daha geniş əraziyə yayılmasının qarşısını alıblar.

Bu fakt da o gerçəkliyi diktə edir ki, mühafizəyə almaq, müdafiə etmək, ayıq-sayıq keşik çəkmək peşəkarlara həvalə olunmalıdır. Bu isə məhz mühafizə polisinin meyarıdır.

*Rəşad Mehtiyev*

# Ali diqqət, fədakar xidmət

## Təltif edilən polislərlə görüş keçirilib





Zəfər Günü ilə əlaqədar Prezident İlham Əliyev tərəfindən təltif edilənlərin sırasında Gəncə Şəhər Baş Polis İdarəsinin əməkdaşları da var.

Manqa komandiri polis baş serjantı Sənan Babazadə və polis baş serjantı Turan Qurbanov Prezidentin məlum Sərəncamı ilə "İgidliyə görə" medalı ilə təltif ediliblər.

Bu münasibətlə həmkarlarımızla Gəncə Şəhər İcra Hakimiyyətində görüş keçirilib. Görüşdə icra başçısı Niyazi Bayramov, Gəncə Şəhər Baş Polis İdarəsinin rəisi polis general-mayoru Teymur Hacıyev və Gəncə Şəhər Prokuroru Azad Qarayev iştirak ediblər. Görüşdə antiterror tədbirlərində iştirak edən hərbi qulluqçuların və polis əməkdaşlarının igidliklərindən bəhs edilib.

Şəhər rəhbərliyi təltif olunan polis əməkdaşlarını təbrik edib, xidmətlərində uğurlar arzulayıb.

*Ruslan Vəliyev*
*polis baş leytenantı*

# Polis Akademiyasında müsabiqə

## İştirakçılar "xəyali" şahidləri dindiriblər



Polis Akademiyasının kursantları "ELSA" Azərbaycan tərəfindən keçirilən "Şahid Dindirmə Müsabiqə"sinin yarımfinal və final mərhələlərində iştirak ediblər.

Müsabiqənin keçirilməsi üçün Azərbaycanda hüquqşünas ixtisası üzrə ali təhsil verən müəssisələrdən 40 komanda qeydiyyatdan keçib, 27 komanda müsahibə mərhələsinə buraxılıb. Bakı Dövlət Universiteti, Dövlət İdarəçilik Akademiyası, Azərbaycan Diplomatik Akademiyası, Azərbaycan Milli Aviasiya Akademiyası və DİN-in Polis Akademiyasının komandaları müsabiqəyə qatılıb. Polis Akademiyasını iki komanda, IV kurs kursantları Əlibala Abulxalıqov və Cavad Əliyev, V kurs kursantları Turqut Süleymanlı və Anar Orucov təmsil edib.

Müsahibə mərhələsində iştirak edən komandalar cinayət hüququ, cinayət-prosessual hüquq və kriminalistika fənləri üzrə vəkillik fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən sual-cavab ediliblər.

Yarımfinal mərhələsində 8 komanda iştirak edib. Komandalar cinayət, cinayət-prosessual və kriminalistika sahələri üzrə kazus əsasında iki nəfər müstəntiq qismində çıxış edərək "xəyali" şahiddən cinayət işi üzrə həqiqətin üzə çıxarılması üçün əhəmiyyətli olan hallara dair məlumatların alınması və cinayətin təsvirinin verilməsi məqsədilə dindirmə prosesinin simulyasiyasını həyata keçiriblər.

Final mərhələsinə 3 komanda yüksəlib. Nəhayət, müsabiqənin yekununda Bakı Dövlət Universitetinin komandası 1-ci, Polis Akademiyasının komandası isə 2-ci yerə layiq görülüb.

Tədbirin sonunda qaliblərə mükafatlar və sertifikatlar təqdim edilib.

# Müsbət tendensiyaya çevrilən çağırış

## Vətəndaşları məsuliyyətdən azad edən tədbirlər nəticə verir



Silahın olduğu yerdə cinayətin törədilməsi ehtimalı yüksəkdir. Bu, bəzən bilərəkdən, bəzən də diqqətsizlikdən baş verir. Səbəb nə olursa-olsun risk böyükdür. Və əgər hadisə baş veribsə, deməli, artıq hər şey üçün gecdir...

Bu günlərdə Daxili İşlər Nazirliyinin qanunsuz saxlanılan odlu silah, döyüş sursatı, eləcə də partlayıcı maddələrin könüllü surətdə təhvil verilməsilə bağlı çağırışı böyük əks-səda doğurdu. Çağırışda saxlanılan qanunsuz silahları könüllü təhvil verən şəxslərin konfidensiallığının qorunması, həmçinin mükafatlandırılacaqları qeyd olunurdu.

Qısa zamanda qanunsuz saxlanılan odlu silahın ehtiyatsızlıqdan və ya diqqətsizlikdən ağır nəticələrə gətirib çıxarmasının və ya cinayətin alətinə çevrilməsinin mənəvi və hüquqi məsuliyyətini dərindən dərk edən vətəndaşlar odlu silahları, sursatları, partlayıcıları könüllü olaraq polisə təhvil verdilər. Ümumiyyətlə son 3 ildə könüllü olaraq polis orqanlarına təhvil verilən 553 odlu silah və 80 minə yaxın döyüş sursatı aparılan prafilaktikanın müsbət nəticələrindən, habelə polisə olan güvəncdən, inam və etibardan, cinayətkarlıqla mübarizədə hüquq mühafizə qurumlarına göstərilən dəstəkdən xəbər verir.

Proses bu gün də uğurla davam edir. Belə ki, paytaxt və respublikanın ayrı-ayrı rayonlarında sakinlər qanunsuz saxladıqları silahları ərazi polis orqanlarına təhvil verir, yaxud saxlanc yerini bildirirlər. Yeri gəlmişkən, ötən həftə sonu vətəndaşların könüllü olaraq xeyli sayda qanunsuz saxlanılan silahları, döyüş sursatlarını təhvil verməsi faktı da deyilənləri təsdiqləyir.

Bununla belə daxil olan məlumatlar göstərir ki, Vətən müharibəsindən və lokal antiterror tədbirlərindən sonrakı dövrdə ayrı-ayrı şəxslərin müxtəlif yollarla ələ keçirdiyi odlu silahı qanunsuz saxlaması, daşıması, gəzdirməsi, başqasına verməsi, satması kimi hallar mövcuddur. Bu səbəbdən bir daha nəzərə çatdırılır ki, qanunsuz saxladığı odlu silahı, döyüş sursatını, partlayıcı maddələri könüllü surətdə təhvil verən şəxslər, əgər həmin əşyalar cinayət törətməkdə istifadə edilməyibsə məsuliyyətdən azad olunurlar.

*Teymur Əlizadə*
*polis mayoru*

# Virtuallıqda reallaşan cinayət...

## Kiberdələduzluqla mübarizə maariflənmə ilə başlayır

**Dünyanın sürətlə qloballaşması, virtal sosiallaşma yəqin ki, zəmanəmizin ən ümumi cəhətidir. Texniki tərəqqi bu qloballaşmanın axınında ölkələrin sərhədlərini maneəsiz aşıb keçir. Baş verən yeniliklər böyük virtual dünya və bütün müsbət təmayülləri ilə bərabər, real təhdidlər də yaradır.**

### Sərhəd tanımayan kibercinayətkarlıq

İnternet cəmi bir neçə onilliklə müqayisədə fantastik imkanlar deməkdir. Xoş məramla yararlandıqda sonsuz hüdudlar açır, əks yöndə isə cəmiyyətin ümumi ahəngi üçün ciddi təhlükələr törədir. Bunu eynilə nüvə enerjisindən istifadəyə bənzətmək olar. Nüvə elektrikə çevriləndə faydalı güc mənbəyi olur, bombaya yüklənəndə isə dağıdıcı gücə çevrilir. İnternet, bir qədər də konkretləşdirsək, sosial şəbəkələr də belədir: zərərli məqsədlər üçün istifadə ediləndə cəmiyyətin maraqlarına, ilk növbədə sabitliyə, ictimai qayda və təhlükəsizliyə zərbə vurur.

Məsələn, transmilli cinayətlər, yəni bir neçə ölkədə planlaşdırılan cinayətlər hazırkı şəraitdə sürətli icra imkanı qazanıb. Bunların içində kibercinayətkarlıq, onlayn dələduzluq, internet üzərindən narkokuryerlik kimi çağdaş təhdidlər ilk sırada gəlir.

Bəzi ölkələrdə kibercinayətkarlıq hətta “ənənəvi” cinayətlərin törədilmə faizini üstələyir. Ötən il İspaniya polisi bununla bağlı maraqlı bir məlumat yaymışdı. Rəsmi açıqlamada bildirilirdi ki, bu ölkədə internet fırıldaqlarının qurbanı olmaq riski küçədəki soyğunçuluqla üzləşməkdən daha çoxdur.

Mütəşəkkil cinayətkarlıq getdikcə virtual şəbəkələrdə yayılır və fiziki cinayətlərlə müqayisədə kibercinayətlərin davamlı artım tendensiyası müşahidə olunur. Dünyada kibercinayətkarlıq artıq insan alverindən və narkotik vasitələrin qanunsuz dövriyyə-



sindən sonra üçüncü ən gəlirli cinayət fəaliyyətinə çevrilib. Ona görə onunla mübarizə mütəşəkkil cinayətkarlıqla mübarizənin prioritet istiqaməti kimi nəzərdən keçirilir. Amerika Birləşmiş Ştatları bu kimi təhlükələri önləmək üçün ildə 19 milyard dollar xərcləyir, bununla belə etiraf edilir ki, kibercinayətlərin qarşısı alınmır.

### Kiberdələduzlar ələkeçməzdir?

Şübhəsiz ki, internet adlı qlobal şəbəkəyə qoşulan ölkəmiz onun yan təsirlərindən uzaqda qala bilməzdi. Bu gün vətəndaşların üzləşdikləri onlayn dələduzluq hadisələrilə bağlı polisə müraciət etməsi, İspaniyada olduğu kimi, adi cinayətlər silsiləsindən çox olmasa da, ölkəmizdə kiberdələduzluq faktının təsdiqi baxımından qeyd etməliyik. Digər tərəfdən, kiberdələduzluq hər nə qədər “müasir cinayət növü” sayılsa da, özünün klassik mahiyyətini qoruyub saxlayır. Adətən, dələduzluq hadisələrində cinayətkarla bərabər onun qurbanı da qınağa məruz qalır. Çünki belə cinayətlər demək olar ki, dələduzun toruna düşən şəxsin sadəlövhlüyündən, diqqətsizliyindən qaynaqlanır. Hüquq cinayətkarla zərərçəkənin bu qarşılıqlı “münasibəti”ndən törənən hadisəni viktimoloji cinayət sayır.

Məsələ ondadır ki, dələduzun əməlindən zərər çəkən şəxs prosesin əvvəlində könüllü iştirak edir, yəni hər şey onun “rizası” ilə baş verir. Elə buna görə də dələduzlar tutulana qədər bir müddət cinayətlərini davam etdirə bilirlər. Feysbuk, instaqram, tvitter üzərindən hesab nömrələrinə pul köçürmək üçün min hiylə işlədənlərin əksəriyyəti isə ölkə hüdudlarından kənarda fəaliyyət göstərdiyinə görə məsələ daha da mürəkkəbləşir. Hadisə barədə şikayət olunduqda belə polisin cinayətkarın təqibini həyata keçirməsi çətinləşir, yaxud kiberdələduzları məsuliyyətə cəlb etmək uzun zaman alır. Ancaq bu onların ələkeçməzliyi anlamına gəlməməlidir. Polisin kibertəhlükəsizlik üzrə ixtisaslaşmış əməkdaşlarının peşəkarlığı, müasir elmi-texniki avadanlıqlardan istifadə saxta kimliyi ifşa etməyə və şübəli şəxsin yerini müəyyənləşdirməyə imkan verir. Bunu polisin sosial şəbəkələrdə qruplar yaradaraq dələduzluq edən şəxslərə qarşı indiyədək keçirdiyi çoxsaylı uğurlu əməliyyat tədbirləri də təsdiq edir.

### Özünü və özgələri necə qorumalı...

Dövlət orqanlarında baş vermiş kompüter insidentlərinin koordinasiyası və kibertəhlükəsizlik məsələlərini həyata keçirən Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin bu günlərdə kiberdələduzluq hallarının artması ilə bağlı yaydığı məlumatı bu mövzunu yenidən aktuallaşdırdı. Məlumatda qeyd olunurdu ki, dövlət qurumları və ya ödəmə platformaları adından istifadə etməklə adlar və bənzər domen nümunələri ilə yaradılmış saxta səhifələr dələduzluqla məşğuldur.

Belə məqamlarda vətəndaşların kiberdələduzluqdan qorunmasının ilk şərti ödəniş portalının rəsmi hesab olmasına əmin olmasıdır. Şübhəli halda rəsmi qurumları məlumatlandırmaq zəruridir. Bununla vətəndaş həm özünü, həm də başqalarını kiberhücumdan sığortalamış olar.

*Rəşad Mehtiyev*
*polis baş serjantı*

# Polis mayorunun uğuru

## Gümüş qazansa da hədəfi qızıldır





Abu-Dabi şəhərində BJJ “Ciu-citsu” üzrə masterlər arasında keçirilən dünya çempionatına DİN İdman Cəmiyyətinin fiziki hazırlıq şöbəsinin baş inspektoru polis mayoru Elşən İbişov da qatılıb. Həmkarımız 60 ölkənin 2000-dən çox təmsilçisinin qüvvəsini sınadığı yarışda 91 kiloqram çəki dərəcəsində gümüş medal qazanıb. Belə ki, ilk qarşılaşmada erməni rəqibinə qalib gələn E.İbişov ikinci görüşdə özbək idmançını tatamidən kənarlaşdırıb, ingiltərəliyə isə şans verməyib. Əvvəlki döyüşdə aldığı zədə səbəbindən finalda rusiyalı idmançının qalibiyyətilə barışmalı olub.

*Teymur Əlizadə*

# Qələbədən-qələbəyə

## Həmkarımız bu dəfə də qalib oldu

Ötən ay Azərbaycan kunq-fu millisi İtaliyanın Karrara şəhərində keçirilən dünya çempionatında 28-i qızıl, 6-sı gümüş, 3-ü bürünc olmaqla 37 medal qazanıb.

Bu çempionatda 90 kiloqram çəki dərəcəsində Xətai Rayon Mühafizə İdarəsinin əməkdaşı, polis serjantı Elvin Əhmədli də öz gücünü sınayıb. O, ilk döyüşdə irlandiyalı və Səudiyyə Ərəbistanın idmançısını məğlub edərək finala vəsiqə qazanıb. Həmkarımız finalda italiyalı idmançıya qalib gələrək qızıl medala sahib çıxıb. 4-cü dəfə dünya çempionatının qalibi olan E.Əhmədli bu dəfə də bayrağımızı dalğalandırıb, himnimizi səsləndirib.




Qeyd edək ki, Elvin Əhmədli 2010-cu ildən Kunq-Fu Sanda idman növü üzrə beynəlxalq idman arenasında ölkəmizi təmsil edib. O, 3 dəfə Avropa, 4 dəfə dünya çempionu adına layiq görülüb. 2014-cü ildə idmandakı uğurlarına görə Prezident İlham Əliyev tərəfindən "Fəxri fərman"-la təltif olunub.

*Ruhiyyə Əliyeva*
*polis kapitanı*

# Müstəntiqin sirri

## Hadisə yerinə baxış cinayətin üstünün açılmasının “açarıdır”

**Hadisə yerinə baxış keçirilməsi əvəzedilməz bir istintaq hərəkətidir, çünki digər hərəkətlərlə belə əhəmiyyətli məlumatlar əldə etmək olmur. Məsələn, cinayətkarın ayaq və barmaq izlərini yalnız bu yolla tapmaq olur.**



Müstəntiq bilavasitə hadisə yerindəki obyektləri öyrənmə prosesində cinayət hadisəsinin həqiqi xarakterini aydınlaşdırmağa kömək edən faktların və hadisələrin müəyyən edilməsi üçün idrakın müxtəlif forma və metodlarından istifadə edir. Buna görə hadisə yerinə baxış keçirilməsi cinayətin üstünün açılmasının “açarı” hesab edilir.

### Cinayət yerində iz itmir

Hadisə yerindəki şəraitin qavranılması müstəntiqə hadisəni təsəvvür etməyə imkan verir, versiyaların irəli sürülməsi və digər istintaq hərəkətlərinin edilməsi üçün baza rolunu oynayır. Əlbəttə, heç bir sənədin, protokolun, sxem və şəkillərin analizi gözlə bilavasitə qavramanı əvəz edə bilməz. Məhz buna görə üstü açılmamış cinayət işlərinin yenidən aparılması zamanı hadisə yeri xeyli dəyişikliyə uğrasa belə müstəntiqə orada yenidən olmaq məqsədəuyğundur.

Çox zaman hadisə yerinə baxış keçirilməsi naməlum istintaq situasiyalarında həyata keçirilir ki, bu da araşdırmanın ilkin mərhələsi üçün daha çox xarakterik olur.

### Düşündürən suallar

Bu zaman müstəntiq qarşısında bu suallar durur: Nə baş verib: cinayətdirmi, bədbəxt hadisədirmi? Əgər cinayət baş veribsə, hansı növ cinayətdir? Kim bunu törədə bilərdi?

Hadisə yerinə baxış keçirilməsini digər istintaq tədbirlərindən fərqləndirən əsas cəhətlərdən biri onun təxirəsalınmazlığıdır. Hadisə yerinə baxış keçirilməsi təcili olaraq həyata keçirilməlidir. Hər bir gecikmə dəlil və ya izlərin itməsinə, şahidlər tərəfindən hadisənin unudulmasına, hadisə yerindəki şəraitin dəyişməsinə səbəb ola bilər. Müstəntiq cəld işləyir. Lakin onun kiçik bir səhvinin bərpaedilməz sübutların itməsinə səbəb ola biləcəyini nəzərə almaqla işləyir. Buna görə də müstəntiq üçün məsuliyyət ilk şərtdir. Hadisə barədə məlumat alınanda hər şeydən əvvəl isə müstəntiqin təşkilati fəaliyyəti önə çıxır.

Operativ qrupun yığılması, elmi-texniki vasitələrin hazırlanması və yoxlanması kimi işlər onu gözləyir.

Cinayətlərin üstünün açılmasında operativ qrupun tərkibinin nisbi sabitliyi mühüm əhəmiyyət kəsb edir və təcrübəli şəxslərdən təşkil edilməsi bir o qədər vacibdir.

# Tarix faktlarla yaranır

## Bunlar maraqlıdır

❖Dünyada ən qədim universitet əsası 989-cu ildə qoyulmuş Misirin Əl-Əzhər universitetidir.

❖1758-ci ildə Cakamo Kazanova fransız nazirinə yeni Hərbi Akademiya yaratmaq üçün pul əldə etməyin təzə üsulunu təklif etmiş və beləliklə, lotereya yaranmışdır.

❖İlk istirahət gününün yaranma tarixi bizim eranın 321-ci ilinə təsadüf edir. İlk dəfə Roma imperatoru I Konstantin istirahət günü elan etmiş, həmin gün işləmək və hətta qulları işlətmək qadağan olunmuşdur.

❖Pasport sözünə ilk dəfə 1414-cü ildə İngiltərə parlamentində tərtib edilmiş aktda təsadüf olunur. İndiyə kimi saxlanılmış ən qədim pasportu isə 1641-ci il iyun ayının 18-də I Karl imzalamışdır.

❖Tarixdə ilk dəfə sıfır rəqəmini kəşf edən alim Xarəzmi (əsl adı Əbu Abdullah Məhəmməd ibn Musa) olmuşdur.

❖Dünyanın ən qədim suveren dövləti Misirdir. Misir e.ə 3100-cü ildə əldə etdiyi suverenliyi ilə dünyada ən qədim suveren dövlət hesab olunur.

❖Bir sözü tələffüz etmək üçün 72 əzələ hərəkətə gəlir.

❖“Antalogiya” sözünün hərfi mənası çiçək dəstəsidir.

❖İspaniyanın dövlət himninin sözləri yoxdur.

❖İkinci dünya müharibəsi zamanı qənaət məqsədi ilə “Oskar”ları metaldan deyil, taxtadan hazırlayırdılar.

❖FTB agentləri 1934-cü ildə, agentlik yaradılandan 26 il sonra silah gəzdirmək hüququna sahib olmuşlar.

❖Dünyadakı meşələrin təqribən 25 faizi Rusiyanın Sibir vilayətinin payına düşür.

❖İngiltərədə ən məşhur kağız istehsalçısının adı Vatman idi.

❖Bizə məlum olan musiqi alətləri içərisində ən qədimi ney və arfadır. Onların 6 min ilə yaxın yaranma tarixi vardır.

*Hazırladı: T.Aytən*

# “Tarix”ə düşən ad

## Leksikona xuliqan termini necə daxil olub?

Səfil həyat tərzi keçirən, addımbaşı qanunları, asayişi pozanları “xuliqan” adlandırırlar. Bəs, bu sözün necə yarandığını bilirsiniz?

1898-ci ildən London polisinin hazırladığı məruzələrdə artıq “xuliqan” kəlməsindən istifadə edilməyə başlanmışdı. Bəzi iddialara görə, həmin dövrdə qanunları pozmaqda ad çıxarmış, irlandiyalı Xuliqan (ingiliscə “Hooligan”) ailəsi haqqında mahnı vardı və çox güman ki, bu söz burdan götürülmüşdür. Lakin Klarens Rukun 1899-cu ildə nəşr edilmiş “Xuliqan gecələri” adlı kitabında bu kəlmənin Londonda yaşamış mühafizəçi və oğru Patrik Xuliqanın adından götürüldüyü qeyd olunur.

Öz ailəsi və kiçik dəstəsilə birlikdə tez – tez cinayətlər törətməklə, qarətlər etməklə ad çıxarmış Patrik Xuliqan hətta polis əməkdaşını qətlə yetirmiş, həbsxanaya düşmüş və ömürlük həbs cəzası almışdır.

Bir sözlə, yüz il bundan əvvəl yaşamış Patrik Xuliqan adını “tarix”ə salmışdır.

*R.Vəliyev*

POLİS
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR:
HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 10390
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az
Qiyməti 40 qəpik